BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№2 *Humanitar elmlər seriyası* 2007

# II DÜNYA MÜHARİBƏSİNDƏN SONRA İQTİSADİYYATIN BƏRPA VƏ İNKİŞAF ETDİRİLMƏSİNDƏ AZƏRBAYCAN GƏNCLƏRİNİN İŞTİRAKI (1946-1950-ci illər)

**H.CƏFƏROV**
*Naxçıvan Dövlət Universiteti*

Müharibəni qələbə ilə başa çatdırdıqdan sonra bütün sovet xalqı kimi Azərbaycan xalqı da öz iqtisadiyyatını bərpa və inkişaf etdirməyə başladı. Respublikamız faşist işğalına məruz qalmasa da, müharibənin bütün ağırlığını çəkmişdi. Müharibə nəticəsində sənayenin ümumi məhsulu 1940-cı illə müqayisədə 22% aşağı düşmüş, neft hasilatı 1945-ci ildə 1940-cı ildəkinə nisbətən 235 mln. tondan 11,5 mln.tona, elektrik enerjisi hasilatı isə 1826,5mln.kvt. saatdan 1658,6 kvt. saata düşmüşdü.

Müharibə kənd təsərrüfatına da ciddi təsir göstərmiş, onun maddi-texniki bazası xeyli zəifləmişdi. 1945-ci ildə 1940-cı ilə nisbətən pambıq istehsalı 154 min tondan 65 min tona qədər azalmış, iribuynuzlu malqaranın sayı 1382 min başdan 1203,5 minə enmişdi (1).

Müharibə nəticəsində Azərbaycan əhalisi 17,65% azalmış, fəhlə və qulluqçuların sayı 1940-cı ildə 456 mindən 1945-ci ildə 396 min nəfərə qədər aşağı düşmüşdü (2).

1946-cı ilin martında SSRİ Ali Soveti 1946-1950-ci illərdə ölkənin xalq təsərrüfatını bərpa və daha da inkişaf etdirmək haqqında dördüncü beşillik planı qəbul etdi. Bu plana uyğun olaraq Azərbaycan SSR Ali Sovetinin VIII sessiyası «1946-1950-ci illərdə Azərbaycan SSR xalq təsərrüfatının bərpa və inkişaf etdirilməsinə dair beşillik plan haqqında» qanun qəbul etdi. Planda respublika sənayesinin və kənd təsərrüfatının inkişafını müharibədən əvvəlki səviyyəyə yüksəltmək və bu səviyyəni ötüb keçmək əsas vəzifə kimi irəli sürüldü. Xalq təsərrüfatına kapital qoyuluşu 5,900 mln. manat həcmində nəzərdə tutulurdu. 1940-cı illə müqayisədə sənaye məhsulu buraxılışının 18% artırılması, beşilliyin son ilində neft hasilatının həcminin 17mln. tona çatdırılması, qara və əlvan metallurgiya kimi yeni ağır sənaye sahələrinin yaradılması, dağ-filiz, kimya, rezin sənayelərinin daha da inkişaf etdirilməsi, elektrik motorları, diyircəklər, radioqəbuledicilər, saxsı qablar istehsalı üzrə yeni zavodların tikintisi, toxuculuq, yüngül, yeyinti, ət-süd, yerli tikinti materialları sənayelərinin genişləndirilməsi nəzərdə tutulurdu. Zaqafqaziyada ən iri olacaq Sumqayıt Boru-Prokat Zavodunun, Daşkəsən Filiz-Mədəninin, Zəylik Alunit Yataqlarının və digər ağır sənaye müəssisələrinin işə salınması beşillik planın tərkib hissəsi idi. Mingəçevir Su

Qovşağının tikintisi Azərbaycan neft sənayesini elektrik enercisi ilə təmin etməyə və kənd təsərrüfatının inkişafı üçün suvarılan torpaqların sahəsini genişləndirməyə imkan verəcəkdi. Sumqayıt, Daşkəsən, Mingəçevir Azərbaycanın yeni sənaye mərkəzləri olmalı idi.

Kənd təsərrüfatı sahəsində beşillik ərzində əkin sahələrinin artırılması, istehsalın mexanikləşdirilməsi, məhsuldarlığın artırılması, kolxoz, sovxoz və MTS-lərin təşkilat-təsərrüfat cəhətdən möhkəmləndirilməsi nəzərdə tutulurdu. Kənd təsərrüfatı məhsulları 1940-cı illə müqayisədə 28,2%, pambıq istehsalı isə 65 min tondan 283 min tona çatdırılmalı idi (3).

Naxçıvan MSSR üzrə yerli sənaye məhsulunun ümumi çəkisi 1950-ci ildə 1,5 dəfə artmalı idi. Burada Yağ-pendir, «Badamlı» mineral sular zavodlarının, Mərmər Məmulatlar fabrikinin işə salınması nəzərdə tutulurdu.

Respublika əhalisinin maddi və mədəni rifah halının daha da yaxşılaşdırılması sahəsində də ciddi vəzifələr müəyyən edilmişdi.

Müharibədən sonra qarşıya qoyulmuş ən mühüm dövlət vəzifələrindən biri də sənaye və kənd təsərrüfatı üçün yeni qüvvələrin cəlb edilməsi, fəhlə kadrların artımı, onların hazırlanması və bölüşdürülməsi idi.

Bu vəzifələrin yerinə yetirilməsi bütün xalqın maddi-mənəvi, intellektual potensialının səfərbər edilməsi şərti ilə bağlı idi. Buna isə yalnız mövcud inzibati–amirlik sistemini, totalitar rejimi daha da gücləndirmək, xalq üzərində sərt nəzarəti artırmaq yolu ilə nail olmaq olardı.

Ağır, mürəkkəb vəzifələrin həyata keçirilməsində gənclərin də fəal iştirak etməsi nəzərdə tutulurdu. Gənclərin ictimai və əmək fəallığının yüksəldilməsində komsomol təşkilatları əsas rol oynamalı idi. Dördüncü beşillik planın qəbul edilməsi ilə əlaqədar YİK(b)P MK-nın təbliğat-təşviqat işi haqqında qərarına (1946-cı ilin martı) və ÜİLKGİ MK XV plenumunun (1946-cı il aprel) «beşillik planın yerinə yetirilməsində gənclərin iştirakı haqqında» qərarına uyğun olaraq Azərbaycan LKGİ MK X plenumu yeni beşilliklə əlaqədar olaraq respublika komsomolunun vəzifələri haqqında məsələ müzakirə edərək, bütün oğlan və qızları «dinc quruculuq dövrünün möhtəşəm işlərini müvəffəqiyyətlə görmək üçün səy və təşəbbüs göstərməyə» çağırdı (4).

Plenumun qərarlarında komsomolun əsas vəzifələrindən biri IV beşillik plan haqqında qanunun gənclərə izah edilməsi üçün təşviqat-təbliğat işinin aparılması qeyd edilirdi. Beşillik plan vilayət, şəhər və rayon komsomol konfranslarında, gənclərin mitinq və yığıncaqlarında müzakirə olunur, onun yerinə yetirilməsi ilə bağlı müxtəlif öhdəliklər götürülürdü.

İctimai yerlərdə, zavod sexlərində, kolxoz tarlalarında gənclər üçün əyani təşviqat vasitəsi olaraq beşilliyin əsas proqramlarını, gənclərin əsas göstəricilərini əks etdirən fotovitrinlər, stendlər düzəldilir, qrafiklər, diaqramlar, plakat və şüarlar asılırdı. Xüsusi radio verilişləri, gənclər mətbuatı, divar qəzetləri, döyüş vərəqələri vasitəsilə gənclər istehsal planlarının yerinə yetirilməsinə səfərbər edilir, bu məqsədlə xüsusi siyasi dərnəklər və siyasi məktəblər yaradılırdı. Gənclər üçün mühazirələr, məruzələr, söhbətlər, seminarlar, qəzetlərin kollektiv şəkildə oxunması təşkil edilir, təbliğat üçün partiya-komsomol aktivinin işçiləri, gənc ziyalı kadrlar cəlb edilirdi.

«Azərbaycan gəncləri» və «Молодежь Азербайджана» qəzetlərində

«Gənclər beşillik planı öyrənirlər», «Böyük plan haqqında söhbətlər», «Gənclər beşillik planı yerinə yetirirlər» rubrikaları altında gənclərin siyasi və əmək fəallığı, təşəbbüsləri barədə müxtəlif materiallar dərc edilirdi.

Partiya və komsomol təşkilatlarında gənclər arasında ideya-siyasi işin gücləndirilməsi, gənc nəslin yüksək bolşevik məfkurəsi, «qızğın sovet vətənpərvərliyi», «sovet milli iftixarı ruhunda» tərbiyə edilməsi üçün bütün imkan və vasitələrdən istifadə edilməsi tələb olunurdu. Komsomolçu-gənclərin yığıncaqlarında partiya tarixini, Lenin və Stalinin tərcımeyi hallarını, SSRİ konstitusiyasını və komsomolun nizamnaməsini öyrənən dərnəklər yaradılırdı. 1947-ci ilin aprelində bu dərnəklərdə 62 mindən çox gəncin öz siyasi biliyini artırması, həmin ilin sonunda isə artıq 6496 dərnəkdə 98 mindən çox gəncin məşğul olduğu bildirilsə də, bütün bunların formal olması, bir çox dərnəklərin kağız üzərində fəaliyyət göstərməsi, bir hissəsinin isə dağılması, komsomolçuların əhəmiyyətli hissəsini, komsomolda olmayan gənclərin çoxunun Marksizm-leninizm təhsilinin heç bir növü ilə əhatə olunmadıqları ən yüksək partiya və komsomol yığıncaqlarında etiraf olunurdu (5). Bunu nəzərə alaraq AK(b)P MK «Respublikada komsomolçular və gənclər arasında siyasi-maarif işlərinin quruluşunu yaxşılaşdırmaq tədbirləri haqqında» qərar qəbul etmiş, yerli partiya komitələrinə gənclərin siyasi tərbiyəsi sahəsində komsomol təşkilatlarının işinə «gündəlik rəhbərliyi və nəzarəti təmin etməyi» bir vəzifə kimi tapşırmışdı. Gənclər üçün təşkil edilmiş siyasi dərnəklərin sayı artırılmış, onların işinə rəhbərlik etmək üçün müəllimlərdən, partiya və komsomol işçilərindən hazırlıqlı təbliğatçılar cəlb edilmişdi. Komsomol aktivinin ideya-nəzəri səviyyəsini artırmaq üçün komsomol komitələri yanında mühazirəçilər qrupu yaradılmış, təbliğatçılar və mühazirəçilər üçün seminarlar və metodiki müşavirələr keçirilirdi. Gənclərin və komsomolçuların siyasi tərbiyə və maarif işi Azərbaycan komsomolunun MK, vilayət, şəhər və rayon komitələrində müntəzəm müzakirə edilən məsələlərdən idi. Respublika gəncləri arasında mədəni kütləvi işin yaxşılaşdırılması tədbirləri haqqında AK(b)P MK bürosunun qərarı qəbul edilmiş, 1947-ci ilin iyununda Azərbaycan komsomolu MK-nın plenumunda komsomol işçiləri və fəalları arasında tərbiyə işinin ideya səviyyəsinin yüksəldilməsi haqqında xüsusi məsələ müzakirə edilmiş, komsomolda siyasi-maarif işinin yaxşılaşdırılması tədbirləri müəyyənləşdirilmişdi. 1947-ci ildə Azərbaycanda 6496 siyasi dərnək və siyasi məktəb fəaliyyət göstərirdi. Bu zaman siyasi təhsilin bütün formaları ilə 98 min nəfər gənc əhatə edilmişdi (6).

Gənclərin ideya-siyasi dünyagörüşünün artırılması ilə yanaşı, onların mədəni-texniki səviyyəsinin qaldırılması da dövlət əhəmiyyətli vəzifə hesab edilirdi. Bilavasitə istehsalatda və dövlət əmək ehtiyatları sistemi vasitəsilə yeni fəhlə kadrlarının hazırlanmasına xüsusi diqqət yetirilirdi. Müəssisələrdə fəhlələrin texniki təlimi ilə yanaşı FZM, sənət və dəmiryol məktəbləri müharibədən sonra ixtisaslı fəhlə kadrların kütləvi hazırlığının əsas kanalı idi. Artıq 1946-cı ildə bu məktəblərin sayı 1940-cı ildəkini ötüb keçmişdi. 1947-ci ildə Azərbaycanda sənət, dəmiryol və FZM məktəblərinə 3960 nəfər şagird qəbul edilmişdi. 1941-ci ildə oranı 57 min nəfər ixtisaslı fəhlə bitirmişdi (7). IV beşillik ərzində isə 60 min nəfər gənc mütəxəssis fəhlə hazırlanması nəzərdə tutulurdu (8). Təlim müəssisələrinin maddi-istehsal bazası genişlənmiş,

bir sıra məktəblərdə istehsal və nəzəri proqramın mənimsənilməsi baxımından uğurlu nəticələr əldə edilmişdi. Şagirdlərin təlim alması üçün müvafiq məişət şəraiti yaradılır, onların məktəblərdən kənarlaşmaq hallarına qarşı mübarizə aparılırdı.

Beşilliyin müvəffəqiyyətlə yerinə yetirilməsi üçün yüksək ixtisaslı kadrlar tələb olunduğu nəzərə alınaraq komsomol təşkilatlarından gənc fəhlələrin istehsalat-texniki təhsilinin yaxşılaşdırılmasına, texniki biliklərin geniş təbliğ edilməsinə diqqət yetirməyi tələb edilirdi. Onlardan gənc fəhlələrin, xüsusən ehtiyat əmək qüvvələri (EƏQ) məktəblərindən müəssisələrə yeni gəlmiş gənclərin maddi-məişət şəraitinin və mədəni istirahətinin qayğısına qalmağı, gənclərə məxsus yataqxanalarda nümunəvi qayda yaratmaq, gənc fəhlələrin yaşayış şəraitinin yaxşılaşdırılması tələb edilirdi.

Müharibədən sonrakı beşillikdə Azərbaycan SSR sənayesinin bərpa və inkişaf etdirilməsində, dövlət planlarının yerinə yetirilməsində gənclərin xüsusi rolu var idi. Gənclərin rolunun artması həm də onunla müəyyənləşirdi ki, müharibədən sonra istehsal fəhlələrinin çoxunu gənclər təşkil edirdi. 1946-cı ilin əvvəllərində gənclər fəhlələrin ümumi tərkibinin 80 faizdən çoxunu təşkil edirdilər.

1946-cı ilin əvvəllərində Bakının gənc neftçıxarma briqadaları plandan əlavə 36 min tondan artıq neft vermiş, 130 boş dayanan quyunu işə salmışdılar. Gənc neftayıranlar 1946-cı ilin birinci rübündə tapşırıqdan əlavə 32 min ton müxtəlif neft məhsulları vermişdilər.

Neftçi gənclərin əmək fəallığını artırmaq üçün partiya və komsomolun rəhbərliyi səviyyəsində bir çox qərarlar qəbul edilmiş, ÜİLKGİ MK «Neft sənayesi müəssisələri komsomol təşkilatlarına Azərbaycan LKGİ MK-nın rəhbərliyi haqqında» hətta xüsusi məsələ müzakirə edərək qərar qəbul etmişdi. Həmin qərarda Azərbaycan komsomolunun MK-nın neft sənayesi komsomol təşkilatları üzərində rəhbərliyi qeyri-kafi hesab edilmiş və onun fəaliyyətində Azərbaycan LKGİ MK, Bakı şəhər və rayon, müəssisə komsomol təşkilatlarının gənclərin neft hasilatı və emalına səfərbər edilməsi üçün az iş görməsi, ALKGİ MK gündəlik təşkilati işlərlə məşğul olmayaraq, beşillik planın vəzifələrinin izah edilməsi işi qısamüddətli kampaniyaya çevrilməsi, gənclər arasında sosializm yarışının təşkili ilə məşğul olmaması rəhbər komsomol işçilərinin fəhlə gənclərdən ayrı düşməsi və s. kimi mənfi halları qeyd edilmişdi.

ÜİLKGİ MK-nın bu qərarı Azərbaycan rəhbərliyinin narazılığına səbəb olmuş, AK(b)P MK katibi M.C.Bağırov ÜİK(b)P MK katibi N.S.Potoliçevə məktub yazaraq, həmin qərarı qeyri-obyektiv, əsl vəziyyətə cavab verməyən qərar adlandırmışdı (9). M.C.Bağırov qərarın bir çox müddəaları ilə (gənclər arasında ideoloji işə diqqət verilməməsi, təbliğat və təşviqat işində böyük çatışmazlıqların olması, komsomolçu-gənclərin bolşevik partiyasının tarixi və nəzəriyyəsini öyrənməyin təşkilində, gənclər qəzetlərinin məzmununda böyük qüsurların olması və s.) razılaşsa da qərarın ümumi nəticəsinin səthi olması və real vəziyyəti əks etdirmədiyini göstərmişdi. M.C.Bağırov neft sənayesinin respublikada aparıcı sahə olduğunu, neftçilərin partiya və hökumətin vəzifələrini vicdanla yerinə yetirdiyini, beşilliyin planlarının vaxtından əvvəl yerinə yetirilməsində komsomolun və gənclərin böyük rolu olduğunu diqqətə çatdırmış, neft sənayesində 26 min nəfər gəncin işlədiyini, onların 14 mindən çoxunun komsomolçu olduğunu diqqətə çatdırmışdı

(10). M.C.Bağırov respublika komsomolunun böyük və gərgin işinin mənfi qiymətləndirilməsi ilə razılaşmadığını, bu qiymətləndirmənin komsomolun öz gücünə inamını sarsıtdığını, təşkilatın gənclər arasında nüfuzdan sala biləcəyini qeyd edərək, komsomolçu-gənclərin təkcə neft sahəsində deyil, xalq təsərrüfatının digər sahələrində də yeni beşilliyə böyük töhvələr verdiyini göstərmişdi (11). Azərbaycan rəhbərliyinin narazılığına səbəb olmuş bir amil də, qərarda «Azərbaycan gəncləri» və «Молодежь Азербайджана» qəzetlərinin gənclər arasında nüfuza malik olmaması haqqında müddəa idi. M.C.Bağırov bu qəzetlərin qısa bir vaxt ərzində gənclərin səfərbər olunmasında böyük işlər gördüyünü, öz oxucularının siyasi maariflənməsində xüsusi rol oynadıqlarını və buna görə də ÜİLKGİ MK mətbu orqanlarında dəfələrlə müsbət qiymət aldıqlarını konkret faktlarla əsaslandırmışdı. ÜİLKGİ MK qərarı həm ALKGİ MK, BK, həm də Bakı şəhər rayonlarının komsomol komitələrinin fəallar yığıncağında müzakirə edilmiş, gənclərin qüvvəsini daha yaxşı səfərbərliyə almaq, mövcud nöqsanları aradan qaldırmaq yolları müəyyən edilmişdi.

Bu yollardan biri dövrün tələblərinə uyğun olaraq gənclərin «sosializm yarışına» cəlb edilməsi idi. Sosializm yarışı sovet hakimiyyətinin müxtəlif ildönümlərinə həsr edilir, bu məqsədlə gənclərdən ibarət briqadalar təşkil edilirdi. Rəsmi məlumatlara görə, 1947-ci ilin sonunda Azərbaycanın neft sənayesində 5 mindən artıq adamı əhatə edən 697 gənclər briqadası mövcud idi. Neft sənayesində işləyən 28 min nəfər oğlan və qızdan 20 min nəfərdən çoxu staxanovçu adını daşıyırdı (12). Nəqliyyat sahəsində 2160 nəfər gənc, o cümlədən 26 gənclər briqadası növbədə dayanmışdı (13).

1947-ci ilin yayında «Stalinneft» müəssisəsinin gənc neftçiləri «Boş dayanan quyuları işə salaq» çağırışı ilə öz həmyaşıdlarına müraciət etdilər və Böyük Oktyabr Sosialist İnqilabının 30 illiyi şərəfinə 22 dayanan quyunu bərpa etmək və əlavə 1.000 ton neft verməyi qərara aldılar (14). Onlar bu quyuları istifadəsiz qalmış avadanlığı tapıb toplamaq yolu ilə daxili vəsait hesabına təchiz etməyi öhdəsinə götürdülər. Azərbaycan K(b)P MK və ALKGİ MK bu təşəbbüsü gənclərin «yeni vətənpərvərlik hərəkatı» kimi bəyənərək, digər mədənlərdə də yayılmasını tapşırdılar (15).

Tezliklə bu təşəbbüsün geniş vüsət alması haqqında qəzetlərdə məlumatlar dərc edilməyə başlandı. «Leninneft» və «Azərneft» birliyinin digər mədənlərində işləyən gənc neftçilərin də bü təşəbbüsü müdafiə etdikləri bildirilirdi. Gənclərin hesabına plandan əlavə 144 boş dayanan quyu işə salınmışdı ki, bunlar da ölkəyə 30 min tondan çox neft vermişdi.

1948-ci ilin əvvəllərində neft sənayesində işləyən qabaqcıl gənclərin respublika toplanışı oldu. Həmin yığıncaqda görülmüş işlərə yekun vuruldu və gənclərin əmək fəallığını artırmaq üçün tədbirlər müəyyən edildi. 1948-ci ilin sonlarında komsomolun 30 illiyi şərəfinə keçirilən sosializm yarışında 53 mindən çox gənc və 1074 gənclər briqadası iştirak edirdi. Yubiley günü 11 mindən çox gənc fəhlənin illik tapşırığı, 2500 nəfəri illik normanı, 1500 nəfəri isə üçillik və s.normaları yerinə yetirdikləri bildirilirdi. Lakin bu təşəbbüslər son nəticədə əks effekt verirdi. İstehsal normalarının aşağı olmasını və gözəyarı təyin edildiyini iddia edən SSRİ Neft Sənayesi Nazirliyi həmin normalara yenidən

baxaraq onları yüksəltmək qərarına gəlmişdi. «Azneftin» 300 yardımçı müəssisəsində normalar 20-30 faiz artırılmış, «normanı yerinə yetirməyən gənc fəhlə olmamalıdır» şüarı ortaya atılmışdı (16). Azərbaycanın mədən və zavodlarında, tikintilərdə və nəqliyyatda 877 komsomolçu-gənclər briqadası yaradılmışdı (17). İstehsalatda yeni texnikanı, qabaqcıl iş üsullarını tətbiq edən gənc yenilikçilər dəstəsi meydana gəlmişdi: Dövlət Mükafatı laureatı Ağahüseyn Qafarov –quyuların təmiri üçün işləmə müddətini uzatmağın təşəbbüskarı, Baba Yusifov – quyuları sürətli metodla təmir etməyin təşəbbüskarı, Aslan Osmanov – daşları fasiləsiz olaraq sürətli qoymaq üsulunun iştirakçısı və b.

1949-cu ilin mayında SSRİ Neft Sənayesi Nazirliyi boş dayanan quyuları cədvəldən kənar bərpa etmək haqqında Bakının gənc neftçilərinin təşəbbüsünü bəyənərək onu SSRİ-nin digər neft rayonlarında da yaymaq barədə qərar qəbul etdi. Bakı gənclərinin köməyi ilə 1948-1950-ci illərdə 988 boş dayanan quyu bərpa edilmişdi.

Sənayedə, tikintidə, nəqliyyatda gənclər getdikcə daha geniş təmsil olunmağa başlamışdılar. 1953-cü ildə bu sahədə çalışan gənclərin sayı 92 min nəfər artmışdı. Azərbaycan gəncləri yeni sənaye mərkəzlərinin – Mingəçevir, Daşkəsən, Sumqayıt şəhərlərinin işə salınmasında da yaxından iştirak edirdilər. Azərbaycan komsomolu Mingəçevir SES-nin tikintisini hamiliyə götürmüşdü. Onun ilk sakinləri 1945-ci ilin avqustunda komsomol putyovkası ilə tikintiyə gəlmiş gənclər oldular. 1950-ci ilin sonlarında tikintidə 3 minə yaxın oğlan və qız çalışırdı. Sumqayıtın iri sənaye müəssisələrinin tikintisində çalışanların, sonra həmin müəssisələrdə işləyənlərin də əksəriyyəti gənclər oldular. Onların ixtisas qazanmaları üçün sənət məktəbləri şəbəkəsi genişləndirilirdi.

Respublikanın kənd təsərrüfatının inkişafında kəndli gənclər də böyük səylə çalışırdılar. Xüsusən, «müharibədən sonrakı dövrdə kənd təsərrüfatını yüksəltmək tədbirləri haqqında» ÜİK(b)P MK plenumunun (fevral 1947) qərarından sonra kəndli gənclərin səfərbər edilməsi işi daha da sürətləndirildi. Kənddə partiya direktivlərinin həyata keçirilməsində əsas rolu kolxoz, sovxoz və MTS komsomol təşkilatları oynamalı idilər. 1947-ci ilin iyununda Azərbaycan LKGİ MK XII plenumu «Respublikanın kənd komsomol təşkilatlarının işini yaxşılaşdırmaq tədbirləri haqqında» məsələ müzakirə edərək gəncləri «əkinçilik və heyvandarlıq məhsulu istehsalını artırmaq uğrunda mübarizədə» daha fəal iştirak etməyə çağırdı (18). Gənclər taxıl yığımında, pambığın becərilməsində və başqa kənd təsərrüfatı işlərində fədakarcasına işləyirdilər. Tarlalarda çalışan 11500-dən artıq yüksək məhsul manqası gənclərdən ibarət idi. 3 mindən artıq gənclər briqadası fəaliyyət göstərirdi. Bir sıra gənc kənd təsərrüfat qabaqcılı, o cümlədən Qaryagin (indiki Füzuli) rayonu 1 may kolxozunun sədri Şamama Həsənova, Qasım İsmayılov (indiki Goranboy) rayonunun Voroşilov adına kolxozunun manqa başçısı Manya Kərimova və başqaları Sosialist Əməyi Qəhrəmanı adı almışdılar (19).

1949-1950-ci kənd təsərrüfatı ilinin yekunlarına görə 44 nəfər gəncə Sosialist Əməyi Qəhrəmanı adı verilmiş, 200 nəfərdən çoxu isə orden və medallarla təltif olunmuşdular. Kəndli gənclər arasında bacarıqlı təsərrüfat rəhbərləri də yetişmişdi. 1951-ci ildə 126 nəfər gənc iriləşdirilmiş kolxozların sədri, 356 nəfəri isə kənd təsərrüfatı artelləri təftiş komissiyalarının sədri idilər.

Kəndli gənclər tərəfindən müxtəlif iqtisadi təşəbbüslər irəli sürülürdü. Qubadlı gənclərinin təşəbbüsü ilə 1946-cı ildə respublikada ipəkçiliyi daha da inkişaf etdirmək uğrunda hərəkat başlamışdı.

Kənd təsərrüfatında işləyən gənclərin istehsalat fəallığını artırmaq üçün komsomol orqanlarından kənddə siyasi-mədəni işləri canlandırmaq tələb olunurdu. Kəndli gənclər arasında siyasi təhsilin səviyyəsi, yığıncaqların sayı, ucadan qəzet və ya kitab oxumaq, təşviqatçıların kəmiyyəti ilə ölçülürdü. 1947-ci ilin yayında kəndli gənclər arasında 13 mindən çox komsomol təbliğatçısının, 300 bədii-təşviqat briqadasının siyasi-mədəni iş aparmaları kimi kampaniyaları dövründə «ÜİK(b)P MK fevral 1947-ci il plenumundan irəli gələn vəzifələri izah etmək üçün» gənclər arasında 1200-dən çox mühazirə oxunulması göstərilsə də, onların əksəriyyətinin rəsmiyyətçilik, gözdən pərdə asmaq, hesabat xatirinə edilməsi etiraf olunurdu (20). Kənd gənclərində mədəni xidmətin səviyyəsi yenə də aşağı səviyyədə qalmaqda idi. Kənddə mədəni-maarif ocaqlarının sayı az idi, olanlar isə çox pis işləyirdi. Radio, kino qurğularının sayı tələbatdan çox geri qalırdı. Buna görə də bir çox kəndlərdə gənclər özləri mədəni-maarif müəssisələrinin işini canlandırmaq, yeni mədəniyyət ocaqları tikmək, köhnələrini bərpa etmək təşəbbüsü ilə çıxış edirdilər.

Azərbaycan LKGİ MK XII plenumu rayon komsomol komitələrindən kənddə mədəni xidmətin səviyyəsini yüksəltməyi, mədəni-maarif ocaqlarına kömək göstərməyi, bədii özfəaliyyət dərnəklərinin işini canlandırmağı tələb etmişdi. Hər bir kənd klubunda və qiraət komasında özfəaliyyət dərnəyi yaradılmalı idi. Kəndlərin, rayonların kinolaşdırılması və radiolaşdırılması işində komsomolçu-gənclərin yaxından iştirak etmələri tələb olunurdu. Kəndli gənclərin ümumtəshil səviyyəsinin artırılması üçün axşam məktəbləri şəbəkəsinin genişləndirilməsi, yeddiillik təhsili olmayan gənclərin bu məktəblərə cəlb edilməsi nəzərdə tutulurdu (21).

Kənddə mədəni-tərbiyə işini genişləndirmək məqsədilə Bakı, Kirovabad və digər şəhərlərin müəssisə və təşkilatları, ali məktəbləri, mədəniyyət ocaqları bəzi rayon və kəndləri hamiliyə götürmüşdülər. Azərbaycan Dövlət Tibb İnstitutunun, Azərbaycan Pedaqoji İnstitutunun, Gənc Tamaşaçılar Teatrı, Konservatoriyanın tələbə və aktyorlardan ibarət bədii-təşviqat briqadası yaradılmış və kəndlərə göndərilmişdi.

Kənd gəncləri arasında siyasi-tərbiyə və mədəni-maarif işini gücləndirmək üçün birinci növbədə kənd komsomol təşkilatlarının sayının artırılmasına səy göstərilirdi. Lakin bütün inzibati-təşkilati tədbirlərə baxmayaraq kənddə komsomolun sıraları çox zəif artırdı. 1947-ci ilin yayına olan məlumata görə, 176 kolxozda ilk komsomol təşkilatı fəaliyyət göstərmirdi. İsmayıllı rayonunun 31, Laçın rayonunun 14, Cəbrayıl rayonunun 10, Saatlı rayonunun 7 kolxozunda komsomol təşkilatı ümumiyyətlə, mövcud deyildi (22). 1947-ci ilin əvvəllərindən başlayaraq kolxoz və sovxozlarda komsomolçuların sayı bütün gənclərin təşkilata daxil olması hesabına artmağa başlamışdı. Həmin ilin 6 ayı ərzində 17.214 nəfər komsomola daxil olan gəncin 4.210 nəfəri kolxozçu idi, 283 yeni yaradılmış ilk komsomol təşkilatlarından 112-si kolxoz komsomol təşkilatı idi. Bütövlükdə 1940-1947-ci illər ərzində Azərbaycan SSR-də yaradılmış 578 yeni ilk komsomol təşkilatının 246-sı kolxoz komsomol təşkilatı idi.

Beləliklə, 40-cı illərin ikinci yarısında Azərbaycan iqtisadiyyatı çə-

tin, ziddiyyətli, eyni zamanda uğurlu inкişaf yolu кeçdi. İqtisadiyyatın bütün sahələrində əldə edilən bu uğurlarda Azərbaycan gənclərinin də özünəməxsus xidmətləri olmuşdu.

## ƏDƏBİYYAT


1. История Азербайджана в 3-х томах, т. III. ч. II, Б. 1963, с.168.
2. Народное хозяйство Азербайджанской ССР. Стат. Сб. Баку, 1957, с.359.
3. 1946-1950-ci illərdə Azərbaycan SSR Xalq Təsərrüfatının bərpası və inкişaf etdirilməsi haqqında beşillik plan. B. 1946, s.26.
4. «Kommunist», 1946, 1 iyun; «Azərbaycan müəllimi», 1946, 7 iyun.
5. Azərbaycan LKGİ XV qurultayının və XXIX Ümumbaкı komsomol konf ransının qərarları. B.1948, s.3-4.
6. Azərbaycan LKGİ XV qurultayının materialları. B. 1947, s.23.
7. «Azərbaycan gəncləri», 1947, 16 iyul.
8. Yenə orada, 1948, 23 fevral.
9. ARDSPİHA, f.1, s.253, iş 19, v.40-48.
10. «Azərbaycan gəncləri», 1947, 27 iyun.
11. «Azərbaycan komsomolu», s.272.
12. «Azərbaycan gəncləri», 1947, 18 iyun.
13. Yenə orada, 20 iyun.
14. Yenə orada, 1948, 20 iyul.
15. «Azərbaycan komsomolu» s.278.
16. «Azərbaycan gəncləri», 1947, 9 iyul.
17. Yenə orada, 22 iyun.
18. Yenə orada, 9 iyul.
19. Yenə orada.
20. Yenə orada, 22 iyun.
21. Yenə orada, 9 iyul.
22. «Azərbaycan komsomolu», s.276.


## РОЛЬ МОЛОДЕЖИ АЗЕРБАЙДЖАНА В ВОССТАНОВЛЕНИИ И РАЗВИТИИ ЭКОНОМИКИ ПОСЛЕ ВТОРОЙ МИРОВОЙ ВОЙНЫ (1946-1950 годы)


**Г.ДЖАФАРОВ**


### РЕЗЮМЕ


Статья посвящена достигнутым успехам в восстановлении и развитии экономики после Второй мировой войны в результате предворения в жизнь комплекса мероприятий, а также роли молодежи Азербайджана в приобретении этих успехов.

Автор в статье на основе фактических данных проанализировал роль и участие молодежи Азербайджана в послевоенный период в развитии всех отраслей экономики, промышленности, строительства, транспорта, сельского хозяйства, в развитии источников электроэнергии, а также исследовал усиление политического воспитания и культурно-просветительской деятельности и допущенные здесь ошибки на основе нового, национального мировоззрения.

## THE ROLE OF THE YOUTH OF AZERBAİJAN İN THE RESTORATİON AND DEVELOPMENT OF THE ECONOMY AFTER WORLD WAR II (1946-1950)

**H.JAFAROV**

### SUMMARY

The paper is dedicated to the success in the restoration and development of the economy after World War II at the result of realization of complex of measurements as well as to the role of the youth of Azerbaijan in reaching this success.

The author in this paper on the basis of factual data analyzed the role and participation of the youth of Azerbaijan in the development of all the branches of the economy – industry, construction, transport, agriculture, sources of power during post war period as well as investigated the strengthening of political education and cultural-enlightening activity and the mistaкes made here on the basis of new, national ideology.